# “Azərbaycan Könüllülərinin II Həmrəylik Forumu”



**Azərbaycanda gənclərə diqqət və qayğı, onların hərtərəfli inkişafı və layiqli vətəndaş kimi formalaşması dövlətimizin gənclər siyasətində mühüm yer tutur. Gənclərimizin idmanda, təhsildə, elm, informasiya texnologiyaları və digər sahələrdə göstərdiyi nailiyyətlər danılmazdır. Son illər ölkəmizdə geniş vüsət alan könüllülük hərəkatına gənclərin marağı artmaqdadır. XX əsrin ikinci yarısından könüllülük, həmrəylik, sosial məsuliyyət kimi ali dəyərlər sistemləşdirilərək, BMT könüllüləri tərəfindən koordinasiya edilib. Zaman keçdikcə dünyada kütləvi sosial fəaliyyətə çevrilən könüllülüyün əsas məqsədi maddi maraq güdmədən və cəmiyyətin rifahının daha da yaxşılaşdırılmasına töhfə verməkdir.**

Bu il dekabrın 1-dən 9-dək Azərbaycan Respublikasının Gənclər Fondu və “Asan Xidmət”in birgə təşkilatçılığı ilə “Azərbaycan Könüllülük Həftəsi 2019” keçiriləcək. Ölkəmizin bütün şəhər və rayonlarını əhatə edəcək tədbir çərçivəsində gənc könüllülərin “Şəhidimiz”, “Vətənimiz”, “Könüllülük sərhəd tanımır”, “Təbiətimiz” kampaniyalarında və digər tədbirlərdə iştirakı nəzərdə tutulur.

Ümumilikdə, iki gün ərzində kampaniyaya 2 mindən artıq gənc qoşulub.

“Şəhidimiz” kampaniyası Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 1-də gənclərlə görüşü zamanı gənclərə vətənpərvərlik və milli-mənəvi dəyərlərə bağlılıq barədə tövsiyələrindən ruhlanan bir qrup gəncin təşəbbüsü ilə Novruz bayramı ərəfəsində başlanılıb. Ənənəvi olaraq, gənclər “Şəhidimiz” devizi ilə bayramlarda və əlamətdar günlərdə şəhid ailələrini ziyarət edirlər.





Artıq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin dəstəyi ilə “Şəhidimiz” kampaniyası çərçivəsində respublikanın 17 şəhər və rayonunda, ümumilikdə, gənclər 147 şəhid ailəsinə baş çəkib, onlarla həmrəylik nümayiş etdirib. Gənc könüllülər, “ASAN könüllülər”, RİİB könüllüləri, BİR tələbə-könüllülər, Aqrar inkişaf könüllüləri, KOB könüllüləri, Miqrasiya könüllüləri və digər hərəkatları təmsil edən gənclər rayon və şəhər Şəhidlər xiyabanlarını ziyarət edib, daha sonra onların ailələrinə baş çəkib, dəstəklərini nümayiş etdiriblər.

Qeyd edilən həftə çərçivəsində dekabrın 5-də Beynəlxalq Könüllülər Günündə “Azərbaycan Könüllülərinin II Həmrəylik Forumu” da keçiriləcək. Forumda 2000-dən artıq könüllünün iştirak edəcəyi gözlənilir.

Dekabrın 6-dan 9-dək isə Qusarda 300 nəfər gənc könüllünün iştirakı ilə Azərbaycan könüllülərinin II həmrəylik düşərgəsi təşkil ediləcək.

Dekabrın 10-u Bakı Konqres Mərkəzində “Azərbaycan Könüllülük Həftəsi 2019”un yekunlarına həsr edilmiş mətbuat konfransı olacaq.

Göründüyü kimi, Azərbaycan könüllülərinin zaman keçdikcə daha yaxşı təşkilatlanması, müxtəlif sahələrdə fəallıq nümayiş etdirməsi onların sıralarının artması ilə yanaşı, ölkəmizdə könüllülük hərəkatının inkişafına öz töhfəsini verib. 2009-cu ildə qəbul edilmiş "Könüllü fəaliyyət haqqında” Qanun bu sahənin hüquqi tənzimlənməsində mühüm rol oynayır.

2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (ASAN xidmət) yanında aktiv və konstant könüllü təşkilat olan ASAN Könüllüləri Təşkilatının (AKT) yaradılması Azərbaycan könüllük hərəkatı tarixində yeni səhifə açıb. Burada fəaliyyət göstərən könüllülərin böyük həvəs və enerji ilə vətəndaşlara xidmət göstərməsi, onları maraqlandıran məsələlərə aydınlıq gətirməsi vətəndaşlar tərəfindən də yüksək qiymətləndirilir.

1 saylı “ASAN kommunal” mərkəzinin açılışında cənab Prezident İlham Əliyev könüllülərin “ASAN xidmət”dəki rolunu belə qiymətləndirib: “Əlbəttə ki, biz “ASAN xidmət”i könüllülər hərəkatından ayıra bilmərik. Bu da bir yenilikdir. “ASAN” yaranana qədər Azərbaycanda könüllülər hərəkatı olmamışdır. Biz könüllülər haqqında eşitmişdik. Ancaq: “könüllülər hərəkatı nədir?”--onu bilmirdik. Bu gün artıq bu hərəkat Azərbaycanda yaşayır. Mənə verilən məlumata görə, 10 min gənc artıq könüllü kimi “ASAN xidmət” mərkəzlərində işləyib və bu insanların bir çoxu bu gün müxtəlif vəzifələrdə, müxtəlif işlərdə ölkəmizin gələcək inkişafı üçün çalışırlar.”

Son illər ölkəmizin ev sahibliyi etdiyi "Eurovision-2012” mahnı müsabiqəsi, 2015-ci il birinci Avropa Oyunları, 2017-ci il IV İslam Həmrəyliyi Oyunları, "Formula -1” və digər irimiqyaslı tədbirlərdə minlərlə könüllünün fəallıq göstərməsi gənclərin bu sahə ilə bağlı təcrübə qazanmasında mühüm rol oynadı. Artıq fəxrlə demək olar ki, bu cür beynəlxalq tədbirlərin keçirilməsi nəticəsində Azərbaycanın beynəlxalq miqyasa çıxarılacaq böyük potensiala malik, eyni zamanda, təcrübəli könüllü bazası formalaşıb.

Ümid etmək olar ki, könüllülərin səbirsizliklə gözlədiyi “Azərbaycan Könüllülərinin II Həmrəylik Forumu” bu hərəkatın inkişafına yeni təkan verəcək.

***Əfsanə BAYRAMQIZI,***
***“Xalq qəzeti”***